AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MUZDLU İŞLƏ ƏLAQƏDAR TUTULAN GƏLİR VERGİSİ, MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA, İŞSİZLİKDƏN SIĞORTA VƏ İCBARİ TİBBİ SIĞORTA HAQQI

## Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi üzrə

BAKI – 2024

## Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi üzrə

Muzdlu işə cəlb edilən şəxslərlə əmək müqaviləsi bağlanmalı və onun hüquqi qüvvəyə minməsi üçün müvafiq məlumat www.e-gov.az internet səhifəsi üzərindən “Asan İmza” (http://asanimza.az) və ya SİMA token (https://token.sima.az/) vasitəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə daxil edilməlidir.

## Muzdlu işdən əldə edilən aylıq gəlirlərdən tutulan gəlir vergisinin dərəcələri

**Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin**
**(2019-cu il yanvarın 1-dən 7 il müddətində):**

- Vergi tutulan aylıq gəlirinin məbləği **8000** manatadək olduqda **0 faiz**;
- Vergi tutulan aylıq gəlirinin məbləği **8000** manatdan çox olduqda **8000** manatdan çox olan məbləğin **14 faizi** həcmində gəlir vergisi tutulur.

**Neft-qaz sahəsində fəaliyyəti olan və dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin**

- Vergi tutulan aylıq gəlirinin məbləği **2500** manatadək olduqda **14 faiz** (əsas iş yerində 2500 manatadək olan aylıq əmək haqqının 200 manat olan hissəsi gəlir vergisindən azaddır);
- Vergi tutulan aylıq gəlirinin məbləği **2500** manatdan çox olduqda **350 manat + 2500 manatdan çox olan** məbləğin **25 faizi** həcmində gəlir vergisi tutulur.

**Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar fəaliyyət göstərən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən vergi ödəyicilərində işləyən fiziki şəxslərin**
**(2023-cü il yanvarın 1-dən 3 il müddətində)**

- Vergi tutulan aylıq gəlirinin məbləği **8000** manatadək olduqda **0 faiz**
- Vergi tutulan aylıq gəlirinin məbləği **8000** manatdan çox olduqda **8000** manatdan çox olan məbləğin **5 faizi**;

**(2026-cı il yanvarın 1-dən 7 il müddətində)**

- Vergi tutulan aylıq gəlirinin **5 faizi** həcmində gəlir vergisi tutulacaqdır.

**Hesablanmış məbləğlərin ödənilmə müddəti:**
Fiziki şəxslərin aylıq gəlirlərindən ödəmə mənbəyində tutulan vergi növbəti **ayın 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir.

**Bəyannamənin təqdim edilmə müddəti:**
Hər rüb üzrə rüb başa çatdıqdan sonra **növbəti ayın 20-dən gec olmayaraq** “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)” vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilməlidir.

**Misal:** Dövlət müəssisəsində muzdla işləyən işçinin əsas iş yeri üzrə aylıq əmək haqqı **600 manat** olmuşdur. Bu halda işçinin aylıq əmək haqqından **56 manat** (600-200*14%) gəlir vergisi hesablanaraq tutulacaqdır.

# Azadolmalar barədə

**Gəlir vergisindən azaddır:**

- Respublikanın diplomatik nümayəndəliyində və ya konsulluğunda işləyən diplomatik xidmət əməkdaşlarına, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə "Diplomatik xidmət haqqında" Qanunun 21-ci və 23.2-ci maddələrinə uyğun olaraq ödənilən müavinətlər, kompensasiyalar və aylıq əlavə (01.01.2023-cü ilədək respublikanın diplomatik nümayəndəliyində və ya konsulluğunda tutduğu vəzifədən azad edilərək geri çağırılmış, diplomatik xidmət orqanlarında qulluğuna və ya əmək müqaviləsinə xitam verilmiş diplomatik xidmət əməkdaşlarına və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə bu müddəa şamil olunmur), respublikanın xarici ölkələrdə ticarət nümayəndələrinin və onların aparatlarının işçilərinin və mühafizəsi zəruri hesab edilən respublikanın xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən hərbi qulluqçuların xarici ölkədə aldığı əməkhaqqı, Azərbaycan vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğulluğundan gəlir;
- Azərbaycan Respublikasının rezidenti olmayan şəxsin iş yerindən gəlir - əgər bu gəlir respublikanın rezidenti olmayan işə götürən tərəfindən, yaxud onun adından ödənilirsə və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən və ya onun adından, yaxud daimi nümayəndəlikdə fəaliyyəti ilə əlaqədar ödənilmirsə;
- təqvim ili ərzində alınan hədiyyələrin və təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edildiyi halda təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **2500** manatadək olan hissəsi, mirasların dəyərinin **20.000** manatadək olan hissəsi;

- təqvim ili ərzində alınan və təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edildiyi halda ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **10.000** manatadək olan hissəsi, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **50.000** manatadək olan hissəsi;
- Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin əldə etdiyi maddi yardımın **20.000** manatadək olan hissəsi.
  - Maddi yardım almış mülki şəxslərə bu güzəşt o halda verilir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəxsin hərbi əməliyyatlar nəticəsində əlilliyinin müəyyən edildiyini təsdiq edən arayış təqdim edilmiş olsun.
- şəhid olmuş şəxslərin ailə üzvlərinin təqvim ili ərzində əldə etdiyi maddi yardımın **20.000** manatadək olan hissəsi;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, hüquqi şəxsin, onun filialı və ya nümayəndəliyinin, habelə fərdi sahibkarın fəaliyyətinin ləğvi və işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə işçilərə, habelə işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə isə vəfat edənin vərəsələrinə Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının Prezidentinin qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar;
- alimentlər;
- sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə

bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin sığortaolunanın vergiyə cəlb olunan gəlirlərinin **50 faizindən** çox olmayan hissəsindən Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən **3 illik** müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər;vəsait, həmçinin işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, **3 ildən** az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin sığortaolunanın vergiyə cəlb olunan gəlirlərinin **50 faiz**indən çox olmayan hissəsindən Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən **3 illik** müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər;

- dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;
- şəhid statusu almış şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri **800 manat** məbləğində azaldılır;
- fiziki şəxslərə kompensasiya xarakterli ödəmələr;
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin məbləğləri;
- iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin qanunvericiliklə nəzərdə tutulan məbləği;
- ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərin tibbi müayinədən keçirilməsi üçün işəgötürənin hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilmiş xərc məbləğləri;
- əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən pulsuz müalicə-profilaktik yeməklər, süd və ona bərabər tutulan digər məhsulların dəyəri və işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə verilən xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin dəyəri;

- istehsalatdan ayrılmaqla təhsil almağa göndərilmiş tələbələrə, doktorantlara və magistrlərə müəssisə və təşkilatların hesabına ödənilən təqaüd məbləğləri;
- dalğıc işləri üçün pul mükafatı;
- hərbi qulluqçulara, hakimlərə, prokurorluq orqanlarının prokurorluq işçilərinə və prokurorluq işçiləri olmayan hərbi qulluqçularına, hüquq mühafizə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarına ödənilən bütün növ ödənişlər (vəzifə və hərbi (xüsusi) rütbəyə görə maaşlar istisna olmaqla), habelə əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərə, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə kömək edən şəxslərə ödənilən bütün növ əməkhaqqı, mükafat və digər maddi təminatlar;
- işəgötürən tərəfindən işçinin hərbi və alternativ xidmətə çağırılması ilə əlaqədar ödənilən müavinətlərin qanunvericilikdə nəzərdə tutulan məbləği;
- dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən məbləği;
- dövlət qulluqçusu pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq;
- “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin bu məqsədlə yaratdığı hüquqi şəxsin haqqı ödənilən ictimai işlərə cəlb etdiyi işçilərinin bu fəaliyyətlə əlaqədar gəlirləri.

**Qeyd:** Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi üzrə gəlir vergisindən azad olunma və güzəşt halları barədə ətraflı məlumatı **Vergi Məcəlləsinin 102-ci** maddəsindən əldə edə bilərsiniz.

**Unutmayın ki...**

- Fiziki şəxslərin əmək kitabçasının olduğu əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri **2500** manatadək olduqda **200** manat məbləğində olan hissəsi azaldılır.
- İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.
- **3 ildən az olmayan** müddətə bağlanan, lakin vaxtından əvvəl xitam verilən həyatın yığım sığortası üzrə sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən **10 faiz** dərəcə ilə,
- qeyri-dövlət fondlarının ödədiyi pensiyalardan, habelə vergi uçotunda olmadan, VÖEN təqdim edilmədən göstərilən iş və xidmətlərə görə fiziki şəxsə ödənilən gəlirlərdən isə vergi tutulan aylıq gəlirin məbləği **2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olan hissə üzrə isə 350 manat + 2500 manatdan çox olan hissəsindən 25 faizi** dərəcəsi ilə ödəmə mənbəyində vergi tutulur.

Muzdlu işçi kimi cəlb etmədiyi fiziki şəxslərə hüquqi şəxslər, fərdi sahibkarlar və ya vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər tərəfindən ödənilən maddi yardım, mükafat və təqaüdlərdən, mediatorlara mediasiya təşkilatları tərəfindən mülki-hüquqi müqavilələr əsasında ödənilən xidmət haqlarından, habelə vəkil qurumlarının tərkibində fəaliyyət göstərən vəkillərin göstərdiyi vəkillik fəaliyyəti ilə bağlı həmin qurum tərəfindən vəkillərə ödənilən gəlirlərindən ödəmə mənbəyində **14 faiz** dərəcə ilə vergi tutulur.

## Güzəştlər barədə

- **Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır:**
  - Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanları;
  - Azərbaycanın Milli Qəhrəmanları;
  - Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları;
  - müharibə ilə əlaqədar əlilliyi olan şəxslər;
  - həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin (şəhid statusu almış şəxslər istisna olmaqla) dul arvadları (ərləri) və övladları;
  - 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər;
  - qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslər;
  - Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər.

- Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş (müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla), 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin, daimi qulluq tələb edən 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) birinin (özlərinin istəyi ilə), arvadın (ərin), himayəçinin və ya qəyyumun hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri **200 manat** məbləğində azaldılır.

- Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri **100 manat** məbləğində azaldılır:
  - həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin (şəhid statusu almış şəxslər istisna olmaqla) valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və təkrar nikaha girməmiş arvadları (ərləri);
  - Əfqanıstana və döyüş əməliyyatları aparan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və ya təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər;
  - mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmamış məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər.

- Fiziki şəxsin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri üzrə **800 manat**, **400 manat**, **200 manat** və **100 manat** güzəşt hüququ olduqda, ona bu güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir.
- Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan **23 yaşınadək** şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri **50 manat** məbləğində azaldılır.

Bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 yaşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır.

Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır. Himayədə olanların sayı il ərzində azaldıqda (uşaqların ölüm halları istisna olmaqla) himayədə olanların sayının azaldığı aydan sonrakı aydan başlayaraq onların saxlanması üçün məbləğin çıxılmasına xitam verilir.

**Aşağıdakılar himayədə olanlara aid edilmirlər:**

- təqaüd, pensiya və işsizlikdən sığorta ödənişi alan şəxslər (uşaqlardan başqa);
- qanuna əsasən tam dövlət təminatında olan şəxslər.

*

**Onu da bilmək lazımdır ki:**

Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququ qanunla müəyyən edilmiş sənədlərin təqdim edildiyi andan tətbiq edilir və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Fiziki şəxsin vergi güzəştlərini əldə etməyə əsas verən statusu olduğu, lakin güzəşt hüququnu təsdiq edən müvafiq sənədləri əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindikdən sonra təqdim etdiyi halda vergi güzəşti həmin fiziki şəxsin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindiyi tarixdən hesablanır.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı “Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş” adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**